

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 13 (21.423)

22 yanvar 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20-də xanımı Mehriban Əliyeva ilə birlikdə İsveçrəyə işgüzar səfərə gedib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 20-də Davosda Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda İran İslam Respublikasının Prezidenti Administrasiyasının rəhbəri Məhəmməd Nəhavəndian ilə görüşüb.



## Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidməti yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidmətinə tapşırılsın ki, əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say tərkibi barədə təkliflərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 yanvar 2016-cı il*

## F.N.Seyidovun Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Famil Naqim oğlu Seyidov Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 yanvar 2016-cı il*

## Naxçıvan Muxtar Respublikasında investisiyaların təşviqi ilə bağlı tədbirlər haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və sənaye istehsalının artırılması məqsədi ilə **qərara alıram:**

1. "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi investisiya təşviqi sənədinin və həmin sənədi almaq üçün ərizənin formalarını müəyyən etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi investisiya təşviqi sənədini almış şəxslərə qanunla nəzərdə tutulmuş güzəştlərin tətbiqi üçün müvafiq tədbirlər görsünlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 yanvar 2016-cı il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## İnvestisiya təşviqi sənədinin verilməsi QAYDASI

1. Bu Qayda Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən hüquqi şəxslərə və fərdi sahibkarlara (bundan sonra – sahibkar) investisiya təşviqi sənədinin verilməsi qaydasını müəyyən edir.

2. İnvestisiya təşviqi sənədi bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara tam cavab verən investisiya layihələrini təqdim etmiş sahibkarlara verilir. İnvestisiya təşviqi sənədi qanunvericiliklə müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir.

3. İnvestisiya təşviqi sənədinin verilməsi üçün meyarlar aşağıdakılardır:

3.1. investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;

3.2. investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

3.3. investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri.

4. Bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara uyğun investisiya fəaliyyətini həyata keçirmək istəyən sahibkar Nazirliyə ərizə ilə müraciət edir.

5. Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunur:

5.1. bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara tam cavab verən investisiya layihəsi (biznes planı);

5.2. bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş məbləğin 10 faizinin müvafiq investisiya layihəsi üzrə investisiya kimi qoyulduğunu təsdiq edən sənəd;

5.3. ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti.

6. Sahibkar, bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş məbləğin 10 faizi müvafiq investisiya layihəsi üzrə investisiya kimi qoyulmamışdan əvvəl, onun investisiya layihəsinin bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara uyğunluğunun müəyyən edilməsi üçün Nazirliyə müraciət etmək hüququna malikdir. Nazirlik bu cür müraciətə 5 iş günü müddətində baxaraq cavablandırır.

7. Nazirlik bu Qaydanın 4-cü hissəsində nəzərdə tutulmuş müraciətə 5 iş günü müddətində "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxır. İnvestisiya layihəsi bu Qaydanın 3-cü hissəsində göstərilmiş meyarlara tam cavab verdiyi və təqdim olunmuş sənədlərdə çatışmazlıqlar olmadığı halda Nazirlik investisiya təşviqi sənədini sahibkara verir.

8. Nazirlik verdiyi investisiya təşviqi sənədi barədə məlumatı 3 gün ərzində Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinə verir.

9. Nazirlik investisiya təşviqi sənədi verilmiş investisiya layihəsinin bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlar pozulmaqla həyata keçirildiyi haqqında əsaslı məlumat əldə etdikdə və bu pozuntuların aradan qaldırılması mümkün olmadıqda, investisiya təşviqi sənədinin ləğvinə dair qərar qəbul edərək, bu barədə 3 gün ərzində sahibkara, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verir.

10. İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.

## Naxçıvanda 20 Yanvar faciəsinin 26-cı ildönümü qeyd edilmişdir

20 Yanvar faciəsi Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Həmin gün xalqımızın azadlıq səsini ucaltdığı, öz suverenliyi, ərazi bütövlüyü uğrunda qəhrəmanlıq nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix xalqımız tərəfindən daim müstəqillik və qəhrəmanlıq rəmzi kimi anılır.

Qəhrəmanlıq və qürur tariximiz olan 20 Yanvar faciəsindən 26 il ötür. Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da hər il 20 Yanvar şəhidlərinin xatirəsi əziz tutulur, şəhər və rayonlardakı şəhidlər xiyabanlarını minlərlə insan ziyarət edir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlmişdir.

Ali Məclisin Sədri xiyabandakı "Ana abidəsi"nin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Ali Məclisin Sədri Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoymuşdur.

Ardı 2-ci səhifədə





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm və təhsil müəssisələrinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və onun yerli təşkilatlarının, ictimai təşkilatların



və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin, mədəniyyət, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, şəhər sakinləri şəhid məzarları önündən keçərək onların əziz xatirəsini ehtiramla yad etmişlər.

1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, demokratiyaya, humanizmə, insan hüquq və azadlıqlarına qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz olaraq həbs edilmişdir. Nəticədə, insan hüquqlarına dair bir çox beynəlxalq aktların, o cümlədən "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nin tələbləri kobudcasına pozulmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və kəskin bəyanatla çıxış edərək Bakıda baş vermiş faciəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Həmin dövrdə Sovet imperiyasının rəhbərliyi tərəfindən ciddi nəzarət altında saxlanılmasına baxmayaraq, ulu öndərimizin bu cəsarətli addımı, qətiyyətli mövqeyi Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizə əzmini daha da artırmışdır.

20 Yanvar hadisələri təkcə Bakıda törədilən qanlı cinayətlərlə məhdudlaşmamışdır. Tarix boyu əliyalın, dinc insanların qanına susamış, azğınlaşmış erməni silahlı dəstələri tərəfindən həmin günlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə də hücumlar olmuşdur. 1990-cı il yanvarın 18-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olunmuşdur. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" tarixi qərar qəbul etmişdir. Bu qərara əsasən Naxçıvan MSSR Sovet imperiyasının tərkibindən çıxmışdır. Yanvarın 20-də Bakıda qanlı hadisələrin törədilməsindən bir neçə saat əvvəl isə ermənilər Sədərəyə və muxtar respublikanın digər sərhəd kəndlərinə hücumlar etmiş, Qanlı Yanvar faciəsinin ilk səhifələri yazılmışdır. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə naxçıvanlılar düşmənə qarşı mərdliklə dayanmış, qəhrəmancasına mübarizə aparmış, şəhidlər versə də, doğma torpaqlarımızı qoruyub saxlamışlar.

20 Yanvar faciəsinə ilk dəfə ulu öndərimiz tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində siyasi qiymət verilmişdir. Ümummilli liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul edilmişdir. Bundan əlavə, 1992-ci il yanvarın 13-də "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra faciəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilmişdir. 1994-cü ilin fevral ayında keçirilən Milli Məclisin xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirilmiş, müzakirələrin yekunu olaraq həmin ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul edilmişdir.

***"Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç***



***vaxt yaddan çıxarılmamalıdır"***, – deyən ölkə Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Bakı şəhərində şəhidlərin xatirəsinə xüsusi memorial kompleks ucaldılmış, Naxçıvan şəhərindəki Şəhidlər xiyabanı yenidən qurulmuşdur.

Vətən şəhidləri ilə ucalır. Azadlıq, müstəqillik, milli məfkurə və Vətən yolunda şəhidlikdən uca ad yoxdur. Bu gün şəhidlərimizin xatirəsinə ucaldılan ən böyük abidə isə müstəqil və qüdrətli Azərbaycan dövlətidir. 20 Yanvar şəhidləri xalqımızın qəlbində daim yaşayacaqdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi: ***"20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".***

Tədbirdən sonra Ali Məclisin Sədri Xatirə Muzeyinə gəlmişdir.

Məlumat verilmişdir ki, muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilir. Muzeyin fondunda 1600-dən artıq eksponat vardır. Eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi bura gələnlərin, xüsusilə gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına imkan verir. Xatirə Muzeyinin məktəb-muzey şəbəkəsinə qoşulması və burada açıq dərslərin keçirilməsi gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır.

Həmin gün saat 12$^{00}$-da şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunda 20 Yanvar şəhidlərinin xatirəsi anılmışdır

*Yanvarın 18-də Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin 26-cı ildönümü qeyd olunmuşdur.*

Mərasimdə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Qarsdakı Baş konsulu Ayxan Süleymanlı çıxış edərək 20 Yanvar faciəsi barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, keçmiş Sovet imperiyası tərəfindən törədilən bu qırğın Azərbaycan xalqının müstəqillik arzusunu boğa bilməmişdir. Həmin



dəhşətli günlərdə ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilmiş cinayəti pisləmiş, Sovet imperiyasını kəskin ittiham etmişdir. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyi dövründə isə 20 Yanvar hadisələrinə dövlət səviyyəsində siyasi qiymət verilmişdir.

Mərasimdə çıxış edən Qafqaz Universitetinin professoru Hacəli Nəcəfoğlu 20 Yanvarı Azərbaycan tarixinin şanlı səhifəsi kimi dəyərləndirmişdir.

Sonra şəhidlərimizin ruhuna dualar oxunmuş, sənədli filmə və hazırlanmış fotostendlərə baxış olmuş, ehsan süfrəsi açılmışdır.

Mərasimdə Qars valisinin müavini Adəm Ünal, Qars Şəhər Bələdiyyəsinin sədri Murtaza Karaçanta, Ədalət və İnkişaf Partiyasının Qars vilayəti üzrə rəhbəri Adəm Çalkın, digər rəsmi qurumların rəhbərləri və nümayəndələri, Qars Qafqaz Universitetinin müəllim və tələbələri, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbir kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmışdır.

**"Şərq qapısı"**

# 20 Yanvar faciəsinin 26-cı ildönümü muxtar respublikamızın bütün rayonlarında qeyd olunmuşdur

## Şərur rayonu



Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi ölkəmizdə misligörünməmiş faciəyə gətirib çıxardı.

Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda mübarizliyini sındırmaq məqsədi daşıyan bu mənfur planın həyata keçirilməsi imperiyanın iç üzünü ortaya qoydu. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsində xalqımız müstəqillik uğrunda mübarizliyini bir daha nümayiş etdirdi.

Bu hadisə nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mücadilə əzmini qıra bilmədi. Həmin gecə şəhid olan övladlarımız tariximizə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Ona görə də 20 Yanvar faciəsi şərəf və qürur, qeyrət və qəhrəmanlıq tariximizdir.

1990-cı ilin 20 Yanvar hadisələrinin 26-cı ildönümü muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da qeyd olunub. 77 şəhidin doğulub boya-başa çatdığı bölgənin sakinləri yanvarın 20-də azadlıq mübarizlərinin xatirəsini böyük qürur və vətənpərvərlik hissi ilə yad ediblər.

Həmin gün rayon ictimaiyyətinin nümayəndələri Şərur şəhərindəki Şəhidlər xiyabanına gedərək şəhidlərin ölməz xatirəsinə ehtiramlarını bildirib, Vətən övladlarının məzarlarına tər qərənfillər düzüblər.

## Babək rayonu

***20 Yanvar faciəsi xalqımızın tarixinə şərəf və qürur günü kimi yazılıb. Ölkəmizin azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları 26 il bundan əvvəl öz canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.***



Ürəkləri daim Vətən sevgisi ilə döyünən bu qəhrəman oğullarımızın qanı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq, ölkəmiz suverenlik əldə etdi. 20 Yanvar məzmunca terror aksiyası, qanlı faciə, bəşəriyyət qarşısında cinayət olsa da, xarakter etibarilə xalqımıza qarşı yönəldilmiş açıq hərbi təcavüz idi. Törədilmiş faciə nə qədər ağır olsa da, bu, azadlıqsevər xalqımızın mübarizliyini bir daha ortaya qoydu. Aradan 26 il keçməsinə baxmayaraq, xalqımız o faciəni böyük qürur hissi ilə xatırlayır.

20 Yanvar hadisələrinin 26-cı ildönümü muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Babək rayonunda da geniş qeyd olunub. Müstəqilliyimizin, suverenliyimizin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda 43 babəkli şəhid olub. Bu qəhrəman Vətən övladlarının xatirəsi hər zaman dövlətimiz tərəfindən uca tutulur, şəhid ailələrinə hərtərəfli dövlət qayğısı göstərilir.

Yanvarın 20-də rayon ictimaiyyətinin nümayəndələri rayon mərkəzi Babək qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısına gələrək onların ölməz xatirəsinə ehtiramlarını bildirib, abidə önünə gül-çiçək düzüblər.

## Ordubad rayonu



***41 şəhidi olan Ordubad rayonunda da yanvarın 20-də faciənin ildönümü ilə bağlı anım mərasimi keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarından Ordubad şəhərindəki Şəhidlər xiyabanına gələrək şəhid məzarları üzərinə qərənfillər düzüblər.***

Mərasimdə rayon sakinləri ilə söhbətimiz zamanı bildirdilər ki, 20 Yanvar hadisələri xalqımızın milli azadlıq arzusuna qarşı həyata keçirilən ən böyük təcavüz faktı, bir qəhrəmanlıq səhifəsidir. Bu, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının törətdiyi ən böyük cinayət kimi tarix səhifələrinə yazıldı.

SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini sıx birləşdirdi, onların mübarizliyini daha da artırdı. 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansızcasına qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu. 26 ildir ki, həmin gün ölkəmizin hər yerində qeyd edilir, şəhidlərin xatirəsi böyük ehtiramla anılır.

## Culfa rayonu



***1990-cı ilin 20 Yanvar hadisələrindən 26 il ötür. Xalqımızın tarixində bir qəhrəmanlıq səhifəsi kimi yaddaşlara yazılmış 20 Yanvar günü hər il olduğu kimi, bu il də böyük ehtiramla yad olunub.***

Xalqımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin uyuduğu müqəddəs ünvanlar bu gün hər bir azərbaycanlının ziyarət yerinə çevrilib. Vətənini qorumağı özünün vətəndaşlıq borcuna çevirən hər bir azərbaycanlı onun üçün şəhidlik zirvəsinə ucalanların xatirəsini həmişə uca tutur.

Yanvarın 20-də muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da tədbirlər keçirilib. Həmin gün rayon əhalisi Culfa şəhərinin Heydər Əliyev prospektində Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə öz canlarından keçmiş 32 nəfər culfalının xatirəsinə ucaldılmış Şəhidlər Abidə Kompleksini ziyarət ediblər. Tədbirdə iştirak edənlər Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən müxtəlif döyüşlərdə qəhrəmancasına həlak olmuş culfalı şəhidlərin ruhuna dualar oxuyub, abidə önünə gül düzüblər. Tədbirdə Culfa Rayon İcra Hakimiyyətinin, müxtəlif təşkilatların, təhsil, mədəniyyət və səhiyyə müəssisələrinin kollektivləri, Culfa şəhər sakinləri iştirak edib, şəhidlərin ruhuna öz ehtiramlarını bildiriblər.

## Kəngərli rayonu

***İmperiyaların öz mövcudluğunu qorumaq üçün qan tökməsi, qırğınlar törətməsi tarixin bütün dönəmlərində olub. Sovet imperiyasının ömrünü uzatmaq üçün belə addımları atanlar da tarixi xislətlərinə sədaqət nümayiş etdirmək istəyirdilər. Ancaq 1990-cı ilin yanvar ayında Bakıda törədilmiş qanlı faciənin əsas səbəbi təkcə imperiyanın qorunması deyildi.***



O günlər Moskvada cərəyan edən ictimai-siyasi proseslərin görünməyən qatlarında Azərbaycan xalqının iradəsini qırmaq və respublikamızın torpaqlarının bir hissəsinin, xüsusən də Naxçıvan Muxtar Respublikasının ermənilər tərəfindən işğalına şərait yaratmaq idi. Bu barədə dünyanın bütün qütblərini təmsil edən obyektiv düşüncəli ekspertlərin və ədalətli siyasətçilərin çoxsaylı qənaətləri mövcuddur. Lakin düşmən nə bizim əzmimizi, iradəmizi qıra bildi, nə də buyruq köləsi olan ermənilər Naxçıvanı işğal edə bildi. Əksinə, həmin günlərdə ümumxalq birliyi daha da möhkəmləndi, həmrəyliyimiz gücləndi. Buna görə də Qanlı Yanvar faciəsi Azərbaycan tarixinə qəhrəmanlıq günü kimi yazıldı.

20 Yanvar faciəsinin 26-cı ildönümü Kəngərli rayonunda da ümumxalq hüzn günü kimi qeyd olunub. Həmin gün kəngərlililər Azərbaycanın ərazi bütövlüyünü qorumaq, xalqımızın azadlığı naminə canlarından keçmiş qəhrəman övladlarının xatirəsini yad etmək üçün Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısından keçərək onların xatirəsini dərin ehtiramla yad edib, abidə önünə tər çiçəklər düzüblər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda Kəngərli rayonundan 36 nəfər şəhidlik zirvəsinə ucalıb. Yanvarın 20-də rayon mərkəzi Qıvraq qəsəbəsindən və digər kəndlərdən gəlmiş mərasim iştirakçıları səhər saatlarından başlayaraq Vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini yad etmək üçün şəhidlər abidəsinə axın ediblər. Xalqımızın qan yaddaşına əbədi həkk olunmuş 20 Yanvar gününün xalqımızın azadlıq mübarizəsindəki məğrurluğunun və mübarizliyinin nümayişi olduğu bildirilib.

## Şahbuz rayonu



1990-cı il yanvarın 20-də xalqımız minillik qəhrəmanlıq tarixini dünyaya yenidən göstərdi, varlığını məğrurluğu, mətinliyi ilə bir daha sübut etdi. Sübut etdi ki, bu xalq azadlığı yolunda hər an çəkinmədən ölümə hazırdır. Azadlığını, müstəqilliyini şəhid övladlarının qanı bahasına qazanan xalq əbədi yaşamağa qadirdir.

20 Yanvar şəhidləri heç vaxt unudulmayacaq. Onlar xalqın azadlığı yolunda canlarından keçməyə hazır olduqlarını göstərdilər və bu yolu qəhrəmanlıqla qət etdilər. Ölümə gedən yollar onları ölməzliyə, əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə, eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirdi.

Qeyd edək ki, bu yüksək amallar uğrunda Şahbuzun vətənpərvər övladları da mübarizə aparıblar. Rayonun Keçili kəndindən olan və o zaman Bakı şəhərində ali təhsil alan tələbə Teymur Orucov da Qanlı Yanvar gecəsinin günahsız qurbanlarından biridir. Məlum olduğu kimi, 20 Yanvar faciəsinin törədildiyi qanlı şənbə gecəsindən 8 saat əvvəl erməni daşnakları rus havadarları ilə birlikdə Naxçıvana – sərhəd bölgəsi olan Sədərəyə hücum etmişdilər. Bu hücumun qarşısının alınmasında iştirak edən şahbuzlu Rövşən Orucov qəhrəmanlıq göstərərək həmin döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

20 Yanvar hadisələrinin 26-cı ildönümü münasibətilə muxtar respublikanın bütün bölgələri kimi, Şahbuz rayonunun sakinləri də Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Rayon ictimaiyyətinin nümayəndələri – ağsaqqallar, gənclər, ziyalılar, əmək kollektivlərinin nümayəndələri, əsgərlər Şahbuz şəhərindəki "Ana abidəsi" kompleksini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra şəhidlərin ruhuna dualar oxunub.

## Sədərək rayonu

***Ötən əsrin 80-ci illərinin sonunda keçmiş Sovetlər İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət olduqca gərgin idi. Dünyaya meydan oxuyan böyük bir imperiya artıq çökürdü. 1989-cu ilin dekabr ayında muxtar respublikada SSRİ sərhədlərinin dirəklərinin sökülməsi Moskvanı bərk hiddətləndirmişdi. Qısa müddət sonra mərkəz Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün imperiya qoşunlarını Bakıya yeridərək qanlı 20 Yanvar qırğınını törətdi.***



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan hələ 8 saat əvvəl ermənilər keçmiş sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçdilər. Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən daha intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmiş və Kərki kəndini işğal etmişdilər. Sədərək intensiv top atəşinə tutulmuş, kənddə ilk şəhidlər verilmişdi. Eyni vaxtda ermənilərin məhz yanvarın 19-da cidd-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi onu göstərirdi ki, onlar Bakıya qoşun yeridiləcəyindən və bununla da, Naxçıvanın köməksiz qalacağından xəbərdar idilər. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi. Ümumilikdə, mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə 14 dəfə hücum etmiş, 1990-cı ilin martında bu sərhəd bölgəsinə 300-ə yaxın top mərmisi atmışlar. Bu qeyri-bərabər döyüşlərdə 500-ə yaxın ev, məktəb binaları, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılmışdır. Həmin ağır günlərdə sədərəklilərə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan kömək gəlmiş, döyüşlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalmışdır. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Onların xatirəsi Sədərəkdə daim uca tutulur.

20 Yanvar faciəsinin 26-cı ildönümü Sədərək rayonunda da anılıb. Rayon sakinləri Sədərək kəndindəki Şəhidlər xiyabanını ziyarət ediblər.

**Xəbərlər şöbəsi**

## Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib



***Qan yaddaşımızda yaşayan 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar, bugünkü müstəqil Azərbaycan dövlətinin tarixinə həmin faciəni xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazdılar.***

O gün Vətən yolunda öz canlarından keçən, şəhidlik kimi uca bir zirvəni fəth edən, ölümsüzlüyə yüksələn Azərbaycanın oğul və qızlarının məzarları bu gün müqəddəs ünvanlar kimi xalqımızın ziyarət yerlərinə çevrilib.

26 ildir ki, şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq məzarları ziyarət edilir, onların keçdikləri şərəfli ömür yolunun yeniyetmə və gənclərimizə örnək olmasını, şəhidlik yolunun məhz bu günümüz üçün seçildiyini bir daha xatırlatmaq üçün digər məqsədyönlü tədbirlər həyata keçirilir.

Hər il olduğu kimi, bu il də yanvarın 20-də saat 12[00]-də Azərbaycanın bütün ərazilərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, nəqliyyatın hərəkəti dayandırıldı, avtomobillərdən səs siqnalları verildi. Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verildi.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qanvermə aksiyası keçirilib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.***

Belə humanitar aksiyalardan biri yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi işçilərinin iştirakı ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində həyata keçirilib. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən qan bankının həkimi Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Qeyd olunub ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və donor qanına tələbatı artırır. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların – ürək, böyrək, mədə-bağırsaq, qaraciyər xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır. Bununla əlaqədar olan məsələlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. İnsanların həmrəyliyi bu işin təşkilinə böyük kömək edir. Muxtar respublikamızda da bu istiqamətdə ardıcıl olaraq tədbirlər həyata keçirilir.

Sonra nazirliyin işçiləri "Sən də bir həyat ver" devizi altında qanvermə aksiyasına qoşulub. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada 23 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən 9,2 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Kursantlar arasında şeir müsabiqəsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında 20 Yanvar hadisələrinin ildönümü münasibətilə vətənpərvərlik mövzusunda keçirilən şeir müsabiqəsinə yekun vurulub.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək muxtar respublikada gənclər siyasətinin uğurla həyata keçirildiyini bildirib, gənclərin asudə vaxtının səmərəli təşkili, onların intellektual səviyyələrinin inkişaf etdirilməsi və istedadlı gənclərin üzə çıxarılması sahəsində görülən işlər haqqında məlumat verib.



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev bu gün muxtar respublikamızda təhsilin inkişafı, yeniyetmə və gənclərin gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi sahəsində görülən işlər və həyata keçirilən tədbirlərdən danışıb.

Sonra kursantlar vətənpərvərlik şeirlərini bədii qiraət ediblər. 25 kursantın iştirak etdiyi müsabiqədə Heydər Heydərov birinci, Asiman Fərəcov ikinci, Zəka Həsənov üçüncü, Turxan Allahverdiyev və Elvin Məmmədov isə həvəsləndirici yerlərə layiq görülüblər.

Qaliblərə təşkilatçıların diplomları təqdim olunub.

Sonda hərbi liseyin rəisi, general-mayor Elman Orucov kursantlar arasında belə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

## "Qanlı Yanvar" filmi nümayiş olunub



***Yanvarın 20-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Mədəniyyət və Turizm nazirliklərinin təşkilatçılığı ilə kinorejissor, ssenarist Vahid Mustafayevin 1990-cı ildə baş vermiş 20 Yanvar faciəsi barədə çəkdiyi "Qanlı Yanvar" filminin nümayişi olub.***

Filmə Naxçıvan Muxtar Respublikası ictimaiyyətinin nümayəndələri, gənc və yeniyetmələr baxıblar.

"Qanlı Yanvar" filminin əsas süjet xəttini real hadisələr təşkil edir. Ekran əsəri bir neçə baş rol qəhrəmanın timsalında xalqın müstəqillik idealları uğrunda mübarizəsini canlandırır. 1990-cı ilin yanvarında baş verən hadisələrin təsvir olunduğu filmdə təcavüzkar ordunun Bakıya yeridilməsi və qanlı qırğın törətməsini əks etdirən dramatik səhnələr yer alıb.

Qanlı Yanvar hadisələrinin iştirakçısı olan rejissor Vahid Mustafayev filmdə real hadisələri canlandırmağa və insanları bu gün də düşündürən bir sıra suallara cavab tapmağa çalışıb.

Müəllif toxunduğu mövzunun bəşəri mahiyyətini realistcəsinə vermək məqsədilə çəkilişlərə beynəlmiləl heyəti cəlb edib.

Filmdə Azərbaycan ilə yanaşı, Amerika, İran, rus və türk aktyorları birgə çalışıblar. Ekran əsərinin çəkilişində dünya şöhrətli amerikalı aktyor Lane Devies, türk kinosunun canlı əfsanəsi Nəbahət Çehrə, habelə İrandan dəvət olunmuş tanınmış kinooperator Afşin Əlizadənin başçılıq etdiyi çəkiliş qrupu və azərbaycanlılardan ibarət heyət iştirak edib.

"Bakıfilm", ANS Şirkətlər Qrupu və Çingiz Mustafayev Fondunun vəsaiti hesabına çəkilən filmin ərsəyə gəlməsinə dövlət tərəfindən də böyük dəstək verilib.

Azərbaycanın müstəqillik tarixinin qanlı və şanlı səhifəsinə çevrilmiş 1990-cı ilin 20 Yanvar hadisələri poetik düşüncəmizdə, teatr səhnəmizdə, bədii publisistikamızda öz əksini tapsa da, ilk dəfədir ki, bədii ekran həyatını yaşayır. Xalqımızın milli azadlıq istəyindən dönmədiyini, bu yolda hətta canından belə keçməyə hazır olduğunu təcəssüm etdirən belə bir bədii filmin ekranlaşdırılması və həmin dövrün canlı şahidi olmayan gənc və yeniyetmələr tərəfindən izlənilməsi təqdirəlayiq hadisədir.

**Ceyhun MƏMMƏDOV**

## Xalq teatrının səhnəsində yeni tamaşa

***Yanvarın 19-da Babək Rayon Xalq Teatrının səhnəsində yazıçı-dramaturq Hüseynbala Mirələmovun eyniadlı pyesi əsasında hazırlanmış "Xəcalət" tamaşası göstərilmişdir.***

Tamaşanın quruluşçu rejissoru Yusif Əliyev, tərtibatçı rəssamı Əli Səfərov və musiqi tərtibatçısı Cabir Məmmədovdur.

Tamaşada teatrın aktyorları İsmayıl Qurbanov (Vətən), Stella Babayeva (Fərqanə), Akif Əsədov (Murad), Səbinə Corayeva (Gültac), Firdovsi Səfərov (Kürən), Kənan Feyzullayev (Kərim) iştirak etmişlər.

Səhnə əsərində uşaqlıqdan bir yerdə böyümüş Murad və Vətəndən bəhs olunur. Onlar Qarabağ savaşına da birgə getmiş, lakin sonradan həyat yolları ayrılmışdır. Atəşkəs haqqında müqavilə imzalandıqdan, təxminən, 10 il sonra dostlar yenidən görüşürlər. Bu müddətdə Vətən torpaq həsrəti ilə yanıb-yaxılır, Murad isə Qarabağ döyüşündən sonra əldə etdiyi sərmayə ilə var-dövlət qazanıb. İndi iki dost arasında yurda, torpağa münasibətdə fikir ayrılığı yaranıb.

Belə bir vaxtda ailəsi ilə birgə inşası yarımçıq qalmış xəstəxana binasında yaşayan Vətənin qızı ağır xəstələnir. Onun həyat yoldaşı Fərqanə Vətəndən gizlin Muradı tapır, ondan kömək istəyir. Vətən dostunun ona baş çəkmək üçün gəldiyini düşünsə də, söhbət əsnasında Fərqanənin Muraddan xahişi ona bəlli olur və onun halı pisləşir. Çünki vaxtilə Qarabağ savaşında dərd və qəmləri, fikir, düşüncələri eyni olan bu iki dostun indi fikir, düşüncələri də ayrıdır.



Vətən həmişəki kimi yurd həsrəti ilə yandığı halda, Muradın başı var-dövlət yığmağa qarışıb və bu da onun vaxtilə yaxın dostu olan Vətəni çox incidir.

Əsərin konfliktini Vətən ilə Murad arasındakı mövqe və baxış fərqləri təşkil edir. Görəsən, kim haqlıdır? Qarabağ savaşında canını qurban verməyə hazır olan, bir güllə qəlpəsindən öz doğma anasını itirən, amma indi xəstə qızına dərman pulu tapmayan igid Vətən, yoxsa bu savaşın hesabına varlanan, torpağının, yurdunun azadlığını xarici ölkələrin köməyində axtaran Murad? Tamaşanın sonunadək izləyici bu suallara cavab tapmağa çalışır.

Yeni səhnə əsəri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Sonda aktyorlara uğurlu tamaşaya görə rayon İcra Hakimiyyəti tərəfindən mükafat verilmişdir.

**Hafizə ƏLİYEVA**

## Basketbol üzrə yoldaşlıq görüşü

*Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının təşkilatçılığı ilə "Naxçıvan" Universitetinin idman zalında yoldaşlıq görüşü təşkil edilib.*

20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş görüşdə "Naxçıvan" Universiteti və "Lokomotiv" komandaları üz-üzə gəliblər. Görüşdən öncə çıxış edən federasiyanın sədr müavini Ənvər Məmmədov 20 Yanvar faciəsi barədə məlumat verib, Sovet imperiyasının 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törətdiyi vəhşiliklər, ondan 8 saat əvvəl havadarlarının köməyi ilə ermənilərin Naxçıvan Muxtar Respublikasına hücumlarını, günahsız insanların qətlə yetirildiyini bir daha diqqətə çatdırıb. Qeyd edib ki, SSRİ rəhbərliyinin göstərişi ilə törədilmiş dəhşətli cinayət Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilməmiş, əksinə, xalqımızı daha da birləşdirmiş, mübarizliyini artırmışdır. Bu qanlı terror aktına ümummilli liderimizin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Görkəmli dövlət xadiminin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin azadlığı, suverenliyi uğrunda həlak olanların xatirəsinə böyük ehtiram bəsləyir, şəhidlərin ailə üzvlərinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədilə mühüm qərarlar qəbul edilir, hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir.

Daha baxımlı oyun sərgiləyən "Lokomotiv" komandası meydanı 61:50 hesablı qələbə ilə tərk edib.

Sonda fərqlənən basketbolçulara federasiyanın diplomları təqdim olunub.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 55